# "Fəxr edirəm ki, Qələbənin qazanılmasında tankçı oğullarımın da payı olub"

**Şanlı Qələbə ilə başa çatan 44 günlük Vətən müharibəsində adını Zəfər tariximizə yazan qəhrəman oğullardan biri də Balakən rayonundan olan şəhid tankçı Vüsal Omarovdur.**









AZƏRTAC-ın bölgə müxbiri şəhidin ailəsini ziyarət edib, valideynləri ilə Vüsalın Vətən müharibəsindəki qəhrəmanlığından danışıb.

Vüsal Omarov 1989-cu il iyulun 7-də Rusiya Federasiyasının Kemerovo vilayətinin Prokopyevsk şəhərində anadan olub. O, 1995-2006-cı illərdə Balakən rayonunun Poştbinə kənd 1 saylı tam orta məktəbində təhsil alıb. Vüsal 2007-2009-cu illərdə müddətli həqiqi hərbi xidmətdə olub. Hərbi xidmətini başa vurduqdan sonra 2009-cu ildən Azərbaycan Silahlı Qüvvələrinin "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib. Vüsal 2012-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin giziri kimi tankçı vəzifəsində xidmətə başlayıb, tank komandiri olub. 2016-cı ildə Aprel döyüşlərində Lələtəpə uğrunda gedən döyüşlərdə iştirak edib. 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azad olunması uğrunda gedən döyüşlərdə savaşıb, "dəmir atı" ilə düşmənin başına od ələyib. Sentyabrın 28-də Cəbrayıl döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Balakən şəhərindəki Şəhidlər xiyabanında dəfn olunub. Ailəli idi, iki qızı yadigar qalıb.

Şəhidin anası Asayas Omarova övladı barədə danışdıqca kövrəlir: "Oğullarımın hər ikisi hərbçi olub, tank bölmələrində xidmət edirdilər. Böyük oğlum Umar 25 il hərbidə xidmət edib, hazırda ehtiyata buraxılıb. Vüsal isə 10 il idi xidmət edirdi. Hər ikisi çox vətənpərvər idi, müharibə adı gələndə döyüşə getmək üçün can atırdılar, düşməndən qisas almağa tələsirdilər. Vətən müharibəsində də hər ikisi tankçı kimi iştirak ediblər".

Qeyd edək ki, tank komandiri olan Vüsal Omarov Rusiyada keçirilən "Beynəlxalq Ordu Oyunları - 2020" yarışları çərçivəsində təşkil edilən "Tank biatlonu" müsabiqəsində Azərbaycanı təmsil edən şəxsi heyətin tərkibində olub. O, fərdi ustalıq nümayiş etdirərək, komandasının 16 ölkə arasından 4-cü yeri tutmasında xüsusi rol oynayıb.

"Qardaşı Umar da xidmət dövründə 7 dəfə tank yarışlarında iştirak edib, respublika birincisi olub, bir neçə dəfə ikinci yeri tutub, çoxlu medalları var", - deyə şəhid anası vurğulayıb.

Şəhidin atası Şəmsəddin Omarzadə tankçı oğullarının Vətən müharibəsindəki qəhrəmanlıqlarından qürur duyduğunu bildirib: "Fəxr edirəm ki, şəhid atasıyam. Oğlum Vətən uğrunda şəhid olub. Əsas odur ki, torpaqlarımız düşmən işğalından azad edilib, şəhidlərimizin qisası alınıb. Qələbə gününü illərlə gözləmişik. Sevinirəm ki, şanlı Qələbənin qazanılmasında mənim tankçı oğullarımın da payı olub".

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə göstərdiyi igidliyə görə Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, Vüsal Omarov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.

Vüsal Omarovun adının əbədiləşdirilməsi məqsədilə rayonun Gərəkli kəndində küçələrdən birinə onun adı verilib.

Azərbaycan.- 2025.- 4 noyabr (№235).- S.13.